# BİZNES MÜHİTİNİN KİTABXANA-İNFORMASİYA TƏMİNATI SİSTEMİNİN FORMALAŞMASINDA ELEKTRON RESURSLARIN ROLU

**Fəridə Nəbiyeva**
*Bakı Dövlət Universiteti*
*Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının magistrantı*
*nebiyeva.feride7@mail.ru*

***Xülasə:*** *Azərbaycan respublikasında biznes fəaliyyətinin kitabxana-informasiya təminatının mövcud vəziyyətini öyrənmək, bu sahəyə dair sənəd axınının tədqiqini aparmaq, biznes sahəsi üzrə informasiya tələbatçılarını müəyyən etmək, bu sahə üzrə sənəd axınının gələcək inkişaf modelini hazırlamaq kitabxanaşünaslığın və biblioqrafiyaşünaslığın qarşısında duran əsas vəzifələrdən biridir. Məqalədə biznes mühitində kitabxana-informasiya sisteminin formalaşması əks olunmuşdur. Həmçinin burada biznes üçün elektron resurslardan istifadənin səmərəli olmasının önəmi qeyd olunmuşdur.*

***Açar sözlər:*** *kitabxana, kitabxana-informasiya təminatı, avtomatlaşdırma, sənəd axını, elektron resurslar, biznes, biznes mühiti*

**Giriş.** Kitabxanalar əsrlər boyu insan ağlının yaratdığı ideya və nəzəriyyələrin, "yazılı abidələrin" qorunduğu ən böyük informasiya mənbəyidir və bəşər sivilizasiyası öz inkişafına görə kitabxanalara borcludur. Kitabxanalar yarandığı vaxtdan bu günə kimi insanların informasiya tələbatını ödəmək və informasiyanın gələcək nəsillərə ötürmək funksiyasını yerinə yetirir və cəmiyyətin infrastrukturunda ən mühüm olan xüsusi həlqədir. Bu gün dünyada fəaliyyət göstərən kitabxanalar informasiyalaşmış vətəndaş cəmiyyətinin əsas göstəricisi olan qlobal informasiya mühitinin, beynəlxalq, milli və regional səviyyədə informasiya mübadiləsi sistemlərinin yaradılmasında, informasiyanın əmtəəyə çevrilməsində, informasiya və bilik bazarının yaradılması və inkişafında, təhsil sisteminin və səviyyəsinin təkmilləşməsində, cəmiyyətin peşə və ümumi mədəniyyət səviyyəsinin artmasında aparıcı rol oynamalıdır. Bunun üçün kitabxana işinin təkmilləşməsi, kitabxananın müasir səviyyəyə uyğun qurulması, ilk növbədə isə avtomatlaşdırılması zəruridir. [7]

Kitabxanaların fəaliyyətinin əsas istiqamətləri sənəd informasiya fondlarının formalaşmasından, mühafizəsindən və bu materialların hüquqi və fiziki şəxslərə istifadəyə verilməsindən, kitabxanalarda toplanıb saxlanılan informasiya vasitələrinin mübadiləsinə imkan verən vahid informasiya məkanının yaradılmasından ibarətdir. Kitabxanaların avtomatlaşdırılması ağır, yorucu kitabxanaçı əməyinin avtomatlaşdırılmasını, vaxta və insan ehtiyatlarına qənaəti, müxtəlif əlamətlərinə görə ədəbiyyatın çoxaspektli axtarışını, operativ və az xərclə ən yeni informasiya mübadiləsini, oxuculara yüksək elektron xidmət,



oxucu sorğusunun online yerinə yetirilməsini, informasiyanın köhnəlməsi ilə əlaqədar olaraq kitabxana fondunun operativ yeniləşməsi, oxucu tələbatına uyğun komplektləşdirilməsini, oxuculara xidmət də daxil olmaqla bütün proseslərin statistikasını və real uçotunu və s. təmin edir.

Kitabxana işinin avtomatlaşdırılması və kitabxana fondlarının tədricən müasir informasiya daşıyıcılarına köçürülməsi, elektron mübadilə sistemlərindən, internetdən istifadə oxucuların son informasiya ilə məlumatlandırılmasına xidmət edir. Avtomatlaşdırma olmayan kitabxana müasir kitabxana sayıla bilməz.

Son illərdə Azərbaycanda elektron kitabxanalar və ümumilikdə müasir kitabxana-informasiya mühitinin formalaşması sahəsində nəzərəçarpacaq addımlar atılmışdır. Bu baxımdan da qeyd edilən vacib istiqamətlərdən biri olan elektron kitabxanaların formalaşması və elektron resurslardan istifadə sahəsində əsaslı işlər dövlət başçısı İlham Əliyevin "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında 20 aprel 2007-ci il sərəncamı və "Azərbaycan Respublikasında Kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" kimi vacib dövlət sənədlərinin qəbul edilməsindən sonra daha intensiv aparılmağa başlanılmışdır. Dövlət Proqramında kitabxanaların informasiya cəmiyyətində qabaqcıl rolu xüsusi qeyd olunur və deyilir ki, kitabxanalar dövlət islahatlarının həyata keçirilməsinə yardımçı olur, elm, təhsil, sosial inkişaf, iqtisadiyyat və mədəniyyət prosesinə fəal təsir göstərir.

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanununda "informasiya" termininə belə hüquqi məna verilir: "İnformasiya – təqdimat formasından asılı olmayaraq şəxslər, əşya, fakt, hadisə və proseslər haqqında məlumatlardır". İnformasiyanın yaradılması, verilməsi, öyrənilməsi və istifadəsi xarici aləmin predmet və hadisələrinin dərk edilməsi deməkdir. Elmi informasiyanı yaradanlar və həmçinin istifadə edənlər müxtəlif peşəyə, biliyə, dünyagörüşünə malik adamlardır. İnformasiya olmadan heç kəs bilik ala bilməz, istehsalatda və elmdə fəaliyyət göstərə bilməz. İnsanın əqli əmək fəaliyyətinin əsas xəttini zəruri informasiyaların həm öyrənilməsi və həm də onların əsasında yeni informasiyaların yaradılması və tətbiq olunması təşkil edir. [5]

**Əsas hissə.** İnformasiya idarəetmənin əsas xammalıdır. Müasir dövrdə idarəetmə prosesini qərar qəbul etmə və kommunikasiya proseslərindən ayrıca təsəvvür etmək mümkün deyildir. İdarəetmənin təşkiletmə, planlaşdırma, nəzarət, motivləşdirmə və marketinq funksiyalarının ümumi xüsusiyyətləri də bunlarla əlaqəlidir. Bu funksiyalara aid düzgün qərar qəbul etmək üçün informasiya lazımdır. Biznes mühitində informasiya anlayışı altında müəssisənin istehsal prosesinə və bazarda tutduğu mövqeyinə təsir edə bilən məlumatlar başa düşülür. Sahibkarlıq fəaliyyətini informasiya dəstəyi olmadan həyata keçirmək mümkün deyil. Fəaliyyətə başlamazdan öncə sahibkar istehsal şərtlərini, resursların əldə edilməsinin mümkünlüyünü, bazarın dolğunluq dərəcəsini və tutumunu qiymətləndirməlidir. Bütün bunlar isə yalnız lazımi məlumatların əldə edilməsi və emalı vasitəsi ilə mümkündür.

Sahibkarlıqda istifadə olunan informasiyanın növlərinə misal olaraq işgüzar, relevant, cari növləri misal göstərmək olar: İşgüzar – idarəetmə qərarlarının qəbulu üçün vacib olan biznesin daxili və xarici mühiti haqqında məlumatdır. O yekun, icmal və operativ informasiyalara bölünür. Relevant informasiya isə konkret məsələyə, şəxsə, məqsədə, müəyyən vaxt müddətinə yığılan məlumatlardır. Cari – biznesdə eyni vaxtda baş verən hadisələr haqqında informasiyadır.

Ümumiyyətlə sahibkar – xidmət, ticarət və ya istehsal şəklində qazanc əldə etmək məqsədi ilə bir iş sahibi olan, mənfəət əldə etmək üçün bütün məsuliyyəti öz üzərinə götürüb, bütün gücünü sərf etməklə sahibkarlıq fəaliyyətini həyata keçirən şəxsdir.

"Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanununda yazılmışdır: "Sahibkarlıq fəaliyyəti (sahibkarlıq) fiziki şəxslərin, onların birliklərinin, habelə hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti ilə, yaxud digər hüquqi və ya fiziki şəxslərin adından qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir". Bu tərif təkmildir, sahibkarlıq fəaliyyətinin məzmununu dəqiq əks etdirir. [11]

Sahibkarlığın subyektləri həm fərdi adamlar və ya həm də partnyorların birliyi ola bilər. Sahibkarlığın subyekti kimi fərdi adamlar şəxsi, yaxud ailə müəssisəsi təşkil etmək yolu ilə çıxış edirlər. Bu cür sahibkarlar öz əmək məsrəfləri ilə məhdudlaşa bilər, yaxud isə qəbul etdiyi adamların əməyindən istifadə edə bilər. Sahibkarlığın obyekti kimi tərəfdaşların birlikləri müxtəlif təsərrüfat assosiasiyaları; icarə kollektivləri, səhmdar cəmiyyətləri, yoldaşlıq formasında çıxış edə bilərlər.

Sahibkarlığın sözü gedən mühüm əlamətləri bir-birilə sıx qarşılıqlı əlaqədardır və eyni vaxtda fəaliyyətdə olurlar. Xüsusi sahibkarlığın başlıca məqsədi qazanc, mənfəət götürməkdir. Lakin xüsusi sahibkar bilavasitə mənfəət götürmək naminə fəaliyyət göstərsə də o, eyni zamanda həm də qeyri-şüurlu olaraq, bilavasitə öz əmlakına aid olmayan başqa bir zəruri, vacib amala, cəmiyyətin ümumi mənafeyinə də xidmət etmiş olur. Deməli, xüsusi sahibkarlıq yalnız şəxsi mənafe məsələsi deyil, eyni zamanda ictimai məsələdir. Müxtəlif ölkələrin iqtisadiyyatında dövlət sektoru ilə xüsusi sahibkarlıq fəaliyyəti arasında nisbət elə optimal dərəcədə olmalıdır ki, o, ümumi iqtisadi inkişafın dinamikliyini mümkün olan müvazinətdə saxlamağı bacarsın.

Müasir dövrdə hər hansı sahəyə dair konkret informasiyasız keçinmək qeyri-mümkündür. Tələbatçı peşəkar fəaliyyətində mütləq hansısa informasiyaya ehtiyac durur və informasiyaya olan tələbat da bu ehtiyacdan yaranır. İnformasiyaya olan tələbat tələbatçını lazımi informasiyanı özündə əks etdirən sənədin axtarışına sövq edir və bu axtarışda informasiya maneələri mövcud olduqda biblioqrafik informasiyaya ehtiyac meydana çıxır. Biblioqrafik informasiya mütləq sənədlərlə bağlı olur və bilavasitə sənədlərlə bağlı olan informasiya haqqında informasiyanı özündə əks etdirir.



Respublikamızda artıq on ildir ki, fəaliyyət sahəsi kimi hüquqi baxımdan təsdiq olunmuş sahibkarlıq fəaliyyətində lazımi informasiyanın, yeniliyin vaxtlı-vaxtında və operativ şəkildə əldə olunması çox mühüm əhəmiyyət kəsb edir. Belə ki, hər bir sahibkar öz işində lazım olan informasiyanı digərlərindən daha tez əldə etməyə can atır, bununla da həm azad rəqabətə, həm də keyfiyyətli nəticəyə imkan yaradır. Bu baxımdan lazımi məlumatın daha tez və kompleks şəkildə əldə olunmasında İnternet və biblioqrafik məlumat bazalarının rolu əvəzsizdir.

İstənilən fəaliyyət sahəsinin, o cümlədən sahibkarlığın informasiya təminatında ilkin sənədlər və onlar haqqında ikinci dərəcəli informasiya mənbələri – biblioqrafik vəsaitlərin böyük rolu var.

Çox təəssüflər olsun ki, hal-hazırda biblioqrafik informasiya təminatı sahəsində ən böyük problem Azərbaycan çap məhsulunun tam biblioqrafik əksinin olmamasındadır. Eləcə də ayrı-ayrı sahələrin, məsələn sahibkarlıq fəaliyyəti ilə məşğul olan mütəxəssislərin biblioqrafik informasiya ilə təminatına xidmət edəcək retrospektiv və mövzu göstəricilərinin nəşri ilə əlaqədar böyük çətinliklər mövcuddur. Azərbaycanda baş verən sosial-iqtisadi dəyişikliklər informasiya fəaliyyəti sahəsində daha yeni münasibətlərə və formalara keçidin zəruriliyini qarşıya məqsəd qoyur. Bu baxımdan respublikamızda bilavasitə sahibkarlıq fealiyyətinə dair informasiya ehtiyatlarının məzmunu və mahiyyəti açıqlanmalı, sahibkarlığın biblioqrafik informasiya təminatı müasir dünya standartları səviyyəsində təşkil olunmalıdır. Lakin ilkin sənədlərə dair biblioqrafik informasiya vəsaitlərinin nəşri da aktual olaraq qalır. İnformasiyaının elektron nəşr formasında hazırlanması və istifadəsi nə qədər müasir və operativ olsa da, mütəxəssislərin biblioqrafik informasiya ilə təmin edilməsi işində ənənəvi biblioqrafik vəsaitlərin rolunu heç də azaltmır. Ənənəvi formada çap edilən biblioqrafik vəsaitlər illər keçdikdən sonra belə biblioqrafik informasiya tələbatçısına lazım olan informasiyanı çatdıra bilər.

Bu baxımdan respublikamızda hələ formalaşmaqda olan sahibkarlıq fəaliyyəti və bu fəaliyyətlə məşğul olan fiziki və hüquqi şəxslərin lazımi informasiya ilə vaxtında və operativ təmin olunması üçün sahibkarlıq fəaliyyətinə dair ilkin sənədlərin və informasiya ehtiyatlarının məzmunu və mahiyyətinə uyğun olaraq biblioqrafik informasiya vəsaitlərinin yaradılması və avtomatlaşdırılmış biblioqrafik məlumat bazalarının təşkili problemi mütləq öz həllini tapmalıdır. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın və "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə əlaqədar respublikamızın regionlarında yerləşən kitabxanalar da öz resurslarını, imkanlarını və yaradıcı potensiallarını cəlb etmişlər. Həmin proqram çərçivəsində rayon mərkəzi kitabxanaları regionlarda sahibkarlara və kiçik biznesin inkişafına kitabxana-informasiya dəstəyinin perspektivlərini müəyyən etmiş, sahibkarlığın informasiya təminatı problemini həll etmək üçün

çalışmışlar. Universal elmi kitabxanalarda biznes sahəsi üzrə informasiyanın daha səmərəli təqdim olunması region üzrə istifadəçilərin informasiya tələbatının, informasiya bazarının cari vəziyyətinin və inkişaf ənənələrinin daimi və kompleks monitorinqini həyata keçirmədən mümkün deyildir. [8]

Biznes mühitinin informasiya təminatinin təkmilləşdirilməsi məqsədilə kitabxanalar sahibkarları cəlb etmək üçün onların sahibkarlar üçün təşkil olunmuş şəhər, rayon seminarlarında iştirakını təmin edə biləcək və kitabxanalarda keçirilmiş tədbirlər barəsində məlumatların daim yerli KİV-lərdə işıqlandırılması üçün "Sahibkar günü", "Fermer günü" kimi səmərəli reklam vasitələrindən istifadə edə bilərlər. Həmçinin, bələdiyyə orqanları ilə, xüsusilə, onların sahibkarlarla iş üzrə bölmələri ilə əməkdaşlıq münasibətlərinin qurulması bacarığı biznes nümayəndələrinin həmin regionun kitabxanalarına cəlb edilməsi üçün etibarlı zəmin yarada bilər. Bundan başqa, kitabxanalarda informasiya portalı üzrə biznes-məsləhətçinin təyin edilməsi də sahibkarlığa dəstək məqsədilə göstərilən xidmət növü hesab oluna bilər.

İnformasiya xidmətlərinin standart metodları ilə yanaşı, kitabxanaların korporativ istifadəçilərlə səmərəli əməkdaşlığı onlar arasında tərəfdaşlıq əlaqələrinin genişləndirilməsinə səbəb ola bilər ki, bu da, istehlakçının vəsaiti hesabına xüsusi analitiktədqiqat proqramlarının əldə edilməsinə, internet şəbəkəsində kommersiya ehtiyatlarına görə ödəniş edilməsinə, ixtisaslar üzrə müvafiq nəşrlərə abunə yazılışının genişləndirilməsinə, birgə seminarlar, dəyirmi masalar, təhsil və təlim kampaniyalarının təşkilinə də təkan verə bilər. Kitabxanalarla şirkətlərin əməkdaşlığına dair mümkün olan bu cür tədbirlərin sayını artırmaq və kitabxana xidmətlərinə diqqəti cəlb etmək mümkündür. Lakin qeyd etmək vacibdir ki, kitabxanalar hələlik yalnız müəssisələrin iqtisadi fəaliyyətinin informasiya təminatının elə problemlərini həll etməyə qadirdir ki, bunlar kommersiya məlumat vasitəçilərinin çox bahalı şərtləri ilə həyata keçirilir.

Biznes mühitinin öyrənilməsi üçün bazarın vəziyyətini, onun inkişaf perspektivlərini, tələb və təkliflərin dəyişməsi tendensiyalarını qiymətləndirməyə imkan verən ümumi statistik məlumatlardan istifadə olunur. Bu informasiya mənbələri sektoru dövlət statistikası, iqtisadi proqnozlar, müxtəlif təşkilatların və ekspertlərin həyata keçirdikləri analitik tədqiqatlar, ictimai rəy sorğuları və sosioloji tədqiqatların nəticələrini əhatə edir. Hesabat-statistik xarakterli informasiyaların məlumat bazaları beynəlxalq təşkilatlar səviyyəsində (məsələn, Dünya Bankı), milli səviyyədə – dövlət statistika orqanları, gömrük orqanları, Ticarət və Sənaye Palatası və elmi-tədqiqat institutları tərəfindən işlənib hazırlanır. Bu təşkilatların əksəriyyətinin lazımi məlumatları əldə etmək imkanını təmin edən öz elektron informasiya saytları vardır. Lakin, bu məlumatların çoxu giriş üçün açıq deyildir və ödənişli əsaslarla həyata keçirilir.

Biznes sahəsində kitabxanadan kitabxanaçının köməyi ilə məlumatların axtarılıb, istifadə edildiyi kimi həmçinin elektron kitabxanadan da xeyli yararlanmaq mümkündür. Elektron kitabxana – informasiya cəmiyyətinin baza prinsiplərinə: informasiyanın əmtəəyə çevrilməsi, informasiya bazarının formalaşması, cəmiyyət üzvlərinin peşə və təhsil hazırlığının yüksəlməsinə, qlobal informasiya mühitinin yaranmasına xidmət edir. Elektron kitabxana oxuculara informasiya xidmətinin kompüterləşməsinin nəticəsi olub, yalnız bir xidmət növüdür. O, uzaq məsafədən oxuculara daha dolğun informasiya xidməti göstərərək, bu xidmətin zaman və məkandan asılılığına son qoyur. Ənənəvi kitabxanalarda informasiya xidməti yalnız kitabxananın iş saatı müddətində və məhdud sayda oxuculara göstərildiyi halda, elektron kitabxana sutkanın iyirmi dörd saatı müddətində fəaliyyət göstərir və dünyanın istənilən nöqtəsində yerləşən qeyri-məhdud sayda oxuculara eyni zamanda xidmət edir.

Elektron kitabxana ümumi istifadə üçün açıq olan lokal və uzaq məsafədə yerləşən paylanmış informasiya ehtiyatlarına malikdir. Elektron kitabxanaların informasiya ehtiyatı rəqəmli formada hazırlanmış müxtəlif formatlı sənədlərdən ibarətdir. Bu sənədlərin bir qismi kitabxananın mülkiyyəti olub, mərkəzləşmiş formada elektron kitabxananın Web serverlərində toplanmışdır və ənənəvi ədəbiyyatın elektron nüsxələrindən və kitabxana tərəfindən ödənişli və ya mübadilə üsulu ilə alınmış elektron sənəd və nəşr toplusundan ibarətdir. Uzaq məsafədə yerləşən ehtiyatlara kitabxana tərəfindən seçilmiş, dəqiqliyinə və etibarlılığına zəmanət verilən "istifadə üçün açıq" olan İnternet ehtiyatları aiddir.

**Nəticə.** etibarilə biznes mühitinin inkişafında biblioqrafik və elektron resursların formalaşması və inkişafı mühüm rol olynayır. Bunun üçün kitabxanalarda soraq-biblioqrafiya xidməti və elektron resurs bazasından səmərəli istifadəni təşkil etmək lazımdır. Həmçinin azad edilmiş ərazilərdə yeni kitabxana infrastrukurunun yaradılması da vacib məsələlərdən biri kimi önə çəkilməlidir. Məlum olduğu kimi, kitabxanalar biznes mühitinin etibarlı məlumatlarla təmin edilməsinin əsas vasitəçisidir ki, bu da hər bir müəssisə və şirkətin iqtisadi təhlükəsizlik şəraitində fəaliyyət göstərməsini təmin edir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə" Dövlət Proqramı // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi, nəzəri, metodiki və təcrübi jurnal. 2008. №2
2. Azərbaycanda biznes sahəsi üzrə sənəd-informasiya axınının ümumi səciyyəsi və inkişaf meylləri // "Kitabxana-informasiya fəaliyyətində innovasiyalar və yeni əsrin çağırışları" mövzusunda Respublika virtual elmi konfransın materialları, – Bakı: 11 iyun, 2020, – s. 115-116.
3. Biznes mühiti və elektron informasiya resursları // Kitabxanainformasiya elmi: tədris və təcrübədə yeni çağırışlar" Beynəlxalq Elmi Konfransın materialları, – Bakı: 5 may, 2016, – s. 291-295.
4. Biznes sahəsi üzrə məlumat tələbatçılarına kitabxana informasiya xidmətinin müasir istiqamətləri // – Bakı: Kitabxanaşünaslıq və biblioqrafiya, Elmi-nəzəri, metodik və təcrübi jurnal, – 2015. №1 (36), – s. 143-148.
5. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu // "Azərbaycan" qazeti, 1998, 23 iyun.

6. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // "Azərbaycan" qazeti, 1999, 14 mart.
7. N.N. Musayeva, M.S. Xəlilov, A.İ. Qurbanov. Kitabxana informatikası: dərs vəsaiti, 1-ci cild, Bakı, 2001. 246 s.
8. N.Məmmədova. Sahibkarlıq fəaliyyətinin biblioqrafik informasiya təminatı: problemlər, vəzifələr [Mətn] // Kitabxanaşünaslıq və biblioqrafiya. 2006. №1. – s.101-105
9. Regionlarda sahibkarlığın inkişafına kitabxana-informasiya dəstəyi // – Bakı: Kitabxanaşünaslıq və biblioqrafiya, Elminəzəri, metodik və təcrübi jurnal, 2016. №1 (38), – s. 114- 119.
10. S.H.Kərimova. Azərbaycan Respublikasında biznes mühitinin formalaşması sahəsində kitabxanaların fəaliyyəti [Mətn] / Bakı: 2022, 26 s.
11. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu [Mətn]: [15 dekabr 1992-ci il, №405] // Bakı: Qanun, 2012
12. anl.az
13. bsu.edu.az

**Ф.Набиева**

**Роль электронных ресурсов в формировании библиотечно-информационной системы обеспечения деловой среды**

***Резюме***: *Изучение текущего состояния библиотечно-информационного обеспечения предпринимательской деятельности в Азербайджанской Республике, проведение исследования документооборота в этой сфере, выявление потребителей информации в сфере предпринимательства, подготовка будущей модели развития документооборота. документов в этой области является одной из основных задач, стоящих перед библиотечно-библиографическим делом. В статье отражено становление библиотечно-информационной системы в бизнес-среде. Здесь же упоминается важность эффективного использования электронных ресурсов для бизнеса.*

***Ключевые слова***: *библиотека, библиотечно-информационное обеспечение, автоматизация, документооборот, электронные ресурсы, бизнес, бизнес-среда*

**F.Nabiyeva**

**The role of electronic resources in the formation of the library-information supply system of the business environment**

***Summary***: *Studying the current state of library-information provision of business activities in the Republic of Azerbaijan, conducting a study of the flow of documents in this field, identifying information consumers in the field of business, preparing a future development model of the flow of documents in this field is one of the main tasks facing librarianship and bibliography. The article reflects the formation of the library-information system in the business environment. The importance of efficient use of electronic resources for business is also mentioned here.*

***Key words***: *library, library-information provision, automation, document flow, electronic resources, business, business environment*

***Rəyçi:*** *t.ü.f.d., dos. əvəzi* ***R.Qardaşov***